

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 157 (21.058)

20 avqust 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə və Gürcüstan respublikalarının müdafiə nazirləri ilə görüşmüşdür

Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri İsmət Yılmaz və Gürcüstan Respublikasının müdafiə naziri İrakli Alasaniya Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişlər.

Avqustun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri İsmət Yılmaz və Gürcüstan Respublikasının müdafiə naziri İrakli Alasaniya ilə görüşmüşdür.



Qonaqları salamlayan Ali Məclisin Sədri onları Naxçıvanda görməkdən məmnunluğunu bildirmiş, son illər muxtar respublikanın bir sıra beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etdiyini və bunun uğurlu nəticələri olduğunu diqqətə çatdırmışdır. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə və Gürcüstan arasında təhsil, səhiyyə, iqtisadiyyat və nəqliyyat sahələrində uğurlu əməkdaşlığın mövcud olduğunu vurğulamışdır. Qeyd olunmuşdur ki, strateji maraqlara uyğun olaraq, hər üç ölkənin həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli əsasda əlaqələrinin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Naxçıvanın blokadada yaşadığını və düşmən ölkə ilə sərhəddə yerləşdiyini bildirən Ali Məclisin Sədri bütün bunlara baxmayaraq, muxtar respublikada sosial-iqtisadi inkişafın davamlı xarakter aldığını qeyd etmişdir. Bildirilmişdir ki, bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür, Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və birləşmələrinin döyüş qabiliyyəti gücləndirilir, Heydər Əliyev adına Hərbi Liseydə ordumuz üçün ixtisaslı kadrlar hazırlanır.

Ali Məclisin Sədri Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin Naxçıvan görüşünün faydalı olacağına əminliyini bildirmiş, təşkilatçılara təşəkkür etmişdir.

Görüşdə iştirak edən Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov hər üç ölkə arasında siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini diqqətə çatdırmış, Naxçıvan görüşünün hərbi sahədə əməkdaşlıq üçün yeni imkanlar açacağına əminliyini ifadə etmişdir.

Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri İsmət Yılmaz qədim tarixə malik Naxçıvan şəhərində olmağından məmnunluğunu ifadə etmiş, göstərilən qonaqpərvərliyə görə təşəkkür etmişdir. İsmət Yılmaz Türkiyə və Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin qurulmasında beynəlxalq Moskva və Qars müqavilələrinin əhəmiyyətini vurğulamış, son illər həyata keçirilən qarşılıqlı rəsmi səfərlərin siyasi, iqtisadi, təhsil və digər sahələrdə münasibətlərin inkişafına töhfə verdiyini bildirmişdir. İsmət Yılmaz ölkəsinin dost və qardaş Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini diqqətə çatdırmış, hərbi əməkdaşlıq sahəsində qarşılıqlı səylərin göstərildiyini qeyd etmişdir.

Gürcüstan Respublikasının müdafiə naziri İrakli Alasaniya demişdir ki, müdafiə nazirlərinin Naxçıvanda keçirilən görüşü hər üç ölkə arasındakı əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Qeyd olunmuşdur ki, bu gün Gürcüstan, Azərbaycan və Türkiyə arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu münasibətlərin davam etdirilməsində və regionda sülhə nail olunmasında hərbi sahədə əməkdaşlığın mühüm rolu vardır.

Söhbət zamanı hər üç ölkə arasındakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşün sonunda Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri İsmət Yılmaz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova xatirə hədiyyəsi təqdim etmişdir.

Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alper Coşqun, Azərbaycandakı hərbi attaşesi Hasan Nevzat Taşdeler, Naxçıvandakı Baş konsulu Əli Rza Akıncı, Gürcüstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirinin müavini İrakli Svanidze, Azərbaycandakı hərbi attaşesi Şalva Turaşvili görüşdə iştirak etmişlər.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adından Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin şərəfinə rəsmi ziyafət verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib



***Avqustun 19-da Naxçıvan şəhərində yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Qərargahında Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri İsmət Yılmaz və Gürcüstanın müdafiə naziri İrakli Alasaniya arasında üçtərəfli görüş keçirilib.***

Görüş başa çatdıqdan sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov görüşdə müzakirə olunan məsələlər barədə məlumat verərək bildirib ki, üçtərəfli görüş zamanı regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıldı, hərbi sahədə əməkdaşlıq üzrə bir sıra qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi. Bu formatda danışıqların genişləndirilməsi və müdafiə nazirlərinin üçtərəfli görüşlərinin altı aydan bir növbə ilə Azərbaycanda, Gürcüstanda və Türkiyədə keçirilməsi barədə qərar qəbul edildi.

Azərbaycan Respublikasının müdafiə naziri hər üç ölkənin silahlı qüvvələrinin döyüş qabiliyyətinin artırılması və qarşılıqlı əməliyyat uyğunluğunun əldə olunması məqsədilə üçtərəfli birgə təlimlərin keçirilməsinin əhəmiyyətli hesab edildiyini bildirərək deyib ki, həmçinin birgə seminar və konfransların, hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın üçtərəfli formatının yaradılması, neft və qaz boru kəmərlərinin mühafizəsi üzrə üçtərəfli təlimlərin keçilməsi məqsədəuyğun hesab olunub. Bununla əlaqədar üç ölkə mütəxəssislərinin ekspert qruplarının mütəmadi görüşləri təşkil olunacaq.

Türkiyə Respublikasının milli müdafiə naziri İsmət Yılmaz çıxış edərək bildirib ki, görüşdə Cənubi Qafqazla bağlı bütün məsələlərə dair mövqeləri üst-üstə düşən dövlətlərin müdafiə nazirləri olaraq əməkdaşlığımızın gələcək inkişafını nəzərdən keçirdik, bölgədə gedən prosesləri müzakirə etdik. Xüsusən Cənubi Qafqazda sülhün, sabitliyin və davamlı inkişafın təmin edilməsi üçün lazımi addımların atılması məsələsində razılıq əldə etdik.

Türkiyənin Azərbaycan və Gürcüstanın müstəqilliyinə, ərazi bütövlüyünə tam dəstək verdiyini bəyan edən İsmət Yılmaz deyib ki, görüş zamanı bir daha bölgədəki münaqişələrin sülh yolu ilə, ərazi bütövlüyü çərçivəsində həllinin vacib olduğu vurğulandı.

Türkiyə Respublikasının milli müdafiə naziri qeyd edib ki, üç ölkənin birgə əməkdaşlığı bölgəni cazibə mərkəzinə çevirib. Bu çərçivədə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng qlobal layihələr bütün dünyanın diqqətini cəlb edib. Bu mənada hər sahədə qarşılıqlı əməkdaşlığımızın inkişafı mühüm əhəmiyyət kəsb edir. İsmət Yılmaz görüşün təşkilinə, qonaqpərvərliyə və müdafiə nazirlərinin üçtərəfli görüşünü təşkil etdiyinə görə Azərbaycan rəhbərliyinə təşəkkürünü bildirib.

Gürcüstanın müdafiə naziri İrakli Alasaniya Azərbaycana səfər etməkdən və qədim Naxçıvanda olmaqdan məmnun olduğunu bildirərək deyib ki, Azərbaycan və Türkiyə ölkəsinin çox əhəmiyyətli strateji tərəfdaşlarıdır. Bu mənada müdafiə nazirlərinin üçtərəfli görüşü Gürcüstan üçün mühüm əhəmiyyət kəsb edir.

İrakli Alasaniya vurğulayıb ki, görüş zamanı ölkələrimiz, həmçinin region üçün çox əhəmiyyətli iqtisadi layihələrin təhlükəsizliyinin qorunması məsələsi diqqət mərkəzində oldu. Qeyd edilib ki, biz birgə əməkdaşlığımızla regionda mövcud olan münaqişələrin sülh yolu ilə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həllinə nail olmağa, bölgədə sülh və sabitliyi təmin etməyə çalışırıq.

* * *

Mətbuat konfransından sonra Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirləri Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordusunun "N"hərbi hissəsində olublar, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Nuh Peyğəmbərin məzarüstü türbəsini, Duzdağ Fizioterapiya Mərkəzini, Möminə xatın türbəsini, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq və Naxçıvan Dövlət Xalça muzeylərini ziyarət ediblər.

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Əmək Müfəttişliyi Xidməti, Dövlət Sosial Təminat Xidməti, Dövlət Məşğulluq Xidməti, Naxçıvan Şəhər Məşğulluq Mərkəzi, Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi əməkdaşlarının iştirakı ilə "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda seminar keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev açaraq seminarın mahiyyətindən danışıb.***

## Etik davranış qaydaları ilə bağlı seminarlar davam etdirilir

Komissiyanın şöbə müdiri Rafiq Nəcəfov çıxış edərək bildirib ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsiplərini, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

Vurğulanıb ki, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifələrini səmərəli yerinə yetirməyə borcludurlar. Onlar bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdırlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. Dövlət qulluqçusu etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

Qeyd edilib ki, dövlət qulluqçusu bütün şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrini yerinə yetirməsinə təsir etməsinə yol verməməli və bu cür təsir üçün şərait yaratmamalı, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

Şöbə müdirinin sözlərinə görə, etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Seminara Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

# Qovuşduğumuz xoş günlərin təməli çıraq işığında qoyulub

## Gömür kəndi də belə günlərini yaşayır

### *Yaxın keçmişə qısa ekskurs və ya yol boyu düşüncələr*

Müstəqilliyimizin ilk illərini xatırlayanlar bu həqiqəti təsdiq edərlər ki, ümummilli liderimiz Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən nəinki Naxçıvan, ümumilikdə, ölkəmiz üçün taleyüklü tədbirlər həyata keçirib. Düşmənlə üz-üzə dayanan bu qədim yurd yerinin müdafiəsi üçün xalqımızın böyük oğlu cahanşümul xidmətlər göstərib. Ulu Tanrı dahi rəhbəri böyük xilaskarlıq missiyası yerinə yetirmək üçün bu xalqa bəxş edib. O vaxtlar kommunikasiya xətləri kəsilən, yolları bağlanan bu qədim diyarda ulu öndərin çıraq işığında imzaladığı sənədlər bu günümüzə, sabahımıza hesablanmışdı. O illərdə dahi şəxsiyyət naxçıvanlıların inamlarını özünə qaytardı. Yurd qədri bilən insanlar da dahi rəhbərin ətrafında sıx birləşdilər, onunla bir oldular...

Tariximiz üçün ən ağır dövr olan o illərdə bu birlik hesabına Naxçıvan üzləşdiyi çətinliklərə mərdliklə sinə gərdi. Bu gün dönüb o illərə baxmamaq mümkün deyil. Çünki qovuşduğumuz bugünkü firavan yaşayışın təməli o günlərin çıraq işığında qoyulub. Bu işığın gur şöləsi bu gün bütün Azərbaycanı nurlandırır.

Şahbuz rayonunun ucqar dağ və sərhəd yaşayış məntəqəsi olan Gömür kəndinə gedərkən bu düşüncələr içərisində idim. Burada son illərin quruculuq tədbirlərindən də xəbərim var idi və təbii ki, bu tədbirlər ümummilli liderin ideyalarının gerçəkləşməsinin təzahürüdür. Belə təzahürləri həyatımızın hər sahəsində görürük.

* * *

Yağı düşmənlə sərhəddə yaşamağın çətinliyini məhz belə ünvanlarda ömür sürənlər yaxşı bilirlər. Odur ki, onlar daha çox qayğıya möhtacdırlar. Belələri əsl sərhədçi ömrü, əsgər ömrü yaşayırlar və bunu tale yazısı hesab edir, doğulduqları torpağın keşiyində mərdi-mərdanə dayanırlar. Çünki bu torpaqda atababalarımız yaşayıb, at oynadıb, qılınc çalıblar, oğuz ellərinin torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutublar, ən qiymətli əmanəti bu günədək qoruyub saxlayıblar. Bugünkü dövlət qayğısı isə onların torpağa bağlılıq hisslərini daha da gücləndirib.

Bu da dağlar qoynunda yerləşən Gömür kəndi. İlk olaraq bu yaşayış məntəqəsinin adının etimologiyası barədə filologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü Adil Bağırovun fikirlərini xatırlayıram. Alim Naxçıvanın tarixi ərazilərindəki yaşayış məntəqə adlarının müasir toponimik səviyyədə tədqiqindən ibarət "Naxçıvanın oykonimləri" adlı monoqrafiyasında yazır ki, Şahbuz rayonunda "Gömür kəndi", "Gömür yolu", "Gömür dağı", "Gömür mineral suyu" kimi onomastik vahidlər mövcuddur. Lakin "Gömür" adının əmələgəlmə və yaranma tarixi məlum deyil. 1590 və 1727-ci illərdə də bu ad olduğu kimi yazılıb və kənd əhalisi azərbaycanlılardan ibarət olub. "Gömür" sözü türkmənşəlidir. Bu ad qədim türk abidələrinin dilində də işlənib. Sözün məna açımı ilə bağlı A.Bağırovun fikrincə, bu söz "Dağ başında dar, yarğanlı, uçurumlu yer" mənasını bildirir. Doğrudan da, Gömür kəndi ərazinin relyef quruluşuna görə dağlıq hissədə yerləşir. Elə buna görə də adın məna açımı tamamilə həqiqətə uyğundur.

### *Müasir yaşayış məntəqəsinin canlı nümunəsi*

Alimin gəldiyi qənaətə təkcə onu əlavə etmək istəyirik ki, yayın isti günlərində öz yaşıl donu ilə diqqəti çəkən bu yaşayış məntəqəsinin sığındığı dağlar möhtəşəmlik simvolu kimi min illərdir, məğrur-məğrur dayanıblar – sanki kəndin keşiyini çəkirlər.

Əvvəlcədən razılaşdığımız kimi, Gömür kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mənsur Orucovla kəndin meydanında görüşürük. İlk olaraq kəndin füsunkar təbiətindən söz salıram. Müsahibim deyir:

– Kəndimizə yaz və yay fəsillərində yolu düşənlər buradan ayrılmaq istəmirlər. Əsl istirahət zonasıdır. Demək olar ki, ilin bütün fəsillərində kənd qonaqlı-qaralı olur. Füsunkar təbiəti olan bu yurd yerinin sakinləri məlum hadisələr dövrü heç nədən çəkinməyərək kəndi qorudular. Heç kim doğma yurdu tərk etmədi. Hazırda Gömürdə 150 təsərrüfatda 570 nəfər yaşayır. Bu ailələrin 42-si məlum hadisələr dövrü Gömürə Ermənistandan pənah gətiriblər. Onların problemlərinə həssaslıqla yanaşılıb, 2006-cı ildə 19 ailə üçün hər cür mənzil-məişət şəraiti olan evlər tikilib, həmin ailələr torpaq sahəsi ilə təmin olunublar. Özlərinə yeni ev inşa etdirən ailələr də az deyil. Bu məqsədlə həmin ailələrə də dövlət tərəfindən köməklik olunur. Ümumiyyətlə isə hər il kənddə 2-3 ailə yeni evin sevincini yaşayır. Bu tədbir cari ildə də davam etdirilir.

Ömrünün doqquzuncu onilliyinə qədəm qoymuş Baba Babayevi bir neçə il bundan əvvəl tanıyıram. Gömürdə son illərdə həyata keçirilən quruculuq tədbirlərinə, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün görülən işlərə münasibətini öyrənmək üçün onunla görüşməyimə icra nümayəndəsi köməklik göstərir. Baba kişi doğulduğu yurd yerinin dünənini yaxşı xatırlayır, bu günündən qürur hissi keçirir:

– Ölkəmizdə insanların yaşayışına böyük diqqət yetirilir. İnkişaf da, tərəqqi də məhz insana qayğı olan yerdə mümkündür. Çünki insan məxsus olduğu dövlətin ən qiymətli dəyəridir. Naxçıvanda da bunu bütün çalarları ilə görmək mümkündür. Əgər belə olmasaydı, kilometrlərlə dağlı-dərəli ərazilərdən keçərək kəndə qısa müddətdə qaz xətti çəkilməzdi. Elektrik enerjisindən isə bir neçə ildir ki, fasiləsiz istifadə edirik. Salvartıdan və Gəlinqayadan kəndə təbii yolla su xətti çəkilib.

Qeyd edək ki, Gömürdə quruculuq tədbirləri bunlarla bitmir. 2007-ci ildə yeni məktəb binası müəllim və şagirdlərin ixtiyarına verilib, təhsilin yüksək səviyyədə qurulmasını təmin etmək üçün hərtərəfli şərait yaradılıb. İcra nümayəndəliyinin, klubun və kitabxananın yerləşdiyi binalar təmir olunub.

### *Yeni quruculuq obyektləri gömürlülərə dövlət qayğısının yeni ifadəsidir*

Bu gün Gömür yenə də tikinti meydançasını xatırladır. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin inşaatçıları burada bir neçə obyektdə tikinti işləri aparırlar.

Obyektlərdə yaradılan şərait hesabına ötən müddət ərzində xeyli inşaat işi həyata keçirilib. Bu obyektlərdən biri kənd tam orta məktəbinin binasıdır. Binada yenidənqurma və əsaslı təmir işləri aparılır. Binanın müasir layihə əsasında yenilənməsi kənddə təhsilin müasir standartlar əsasında qurulmasına şərait yaradacaq. İki mərtəbədən ibarət olan binada geniş və işıqlı sinif otaqları, fənn kabinələri, laboratoriyalar, kitabxana, idman zalı müəllim və şagirdlərin ixtiyarına veriləcək. İnşaatçılar növbəti dərs ilinə kimi obyekti təhvil vermək əzmi ilə çalışırlar. Gömürdə həm də kənd və xidmət mərkəzləri üçün binalar inşa edilir. İki mərtəbədən ibarət olacaq kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana və mədəniyyət evi fəaliyyət göstərəcək. Obyektdə tikinti işləri sürətlə davam etdirilir.

Yeni obyektlər sırasında 1 mərtəbədən ibarət xidmət mərkəzi də var. Hər 3 obyektin inşası başa çatdırıldıqdan sonra ərazi abadlaşdırılacaq, yaşıllıq zolaqları, gülkarlıqlar salınacaq.

Kənd tam orta məktəbinin müəllimi Zahid Aslanov:

– "Muxtariyyət ili"ndə muxtar respublikamızın bütün bölgələrində kompleks quruculuq tədbirlərinin həcmi bir qədər də artıb. Belə tədbirlər ucqar dağ və sərhəd yaşayış məntəqələrinə daha geniş yol açıb. Bu da onunla bağlıdır ki, dövlətimiz belə ünvanlarda yaşayan insanların həyat şəraitinin daha da yaxşılaşmasını özünün prioritet vəzifəsinə çevirib. Gömürdə həyata keçirilən quruculuq tədbirlərini kənd sakinləri regionumuzda davamlı xarakter almış sosial-iqtisadi inkişafın yeni bəhrələri kimi dəyərləndirirlər.

Onu da deyək ki, davamlı dövlət qayğısı gömürlüləri qurub-yaratmağa, onları muxtar respublikamızın iqtisadiyyatının gücləndirilməsinə öz töhfələrini verməyə ruhlandırır. Kənd adamları təsərrüfatın müxtəlif sahələrində çalışır, məhsul bolluğu yaratmağa səy göstərirlər. Çəkdikləri zəhmət də hədər getmir.

### *Gömürlülər zəhmətə qatlaşan insanlardır*

Gömürün ümumi sahəsi 3160 hektardır. Bunun 360 hektarı pay torpağı kimi kənd adamlarına paylanılıb. Gömürlülər həm də 33 hektar həyətyanı torpaq sahələrindən istifadə edirlər. Yerdə qalan sahələr isə örüş və biçənəkdən ibarətdir. Digər dağlıq ərazilər kimi, Gömürdə də belə yaşayış məntəqələri üçün inkişafı mümkün olan təsərrüfat sahələri diqqət mərkəzində saxlanılır. Bu sahələrdən biri kartofçuluqdur. Cari təsərrüfat ilində kəndin torpaq mülkiyyətçiləri 20 hektar sahədə kartof əkini keçiriblər. Onlar dövlətdən güzəştli kreditlər alıblar, keyfiyyətli toxum sortları ilə təchiz olunublar.

Kənd üçün spesifik sahələrdən biri də meyvəçilikdir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbulundan ötən müddətdə bu sahələrə maraq daha da artıb. Demək olar ki, bütün həyətyanı sahələrdə meyvəçilik inkişaf etdirilir. Son illərdə isə pay torpaq sahələrində də meyvə bağlarının salınmasına başlanılıb. Yazın ilk günlərindən sahələrə çıxan torpaq mülkiyyətçiləri özlərinin tələbatını ödəmək üçün tərəvəz əkininə də üstünlük verirlər. Gömürün iqtisadiyyatına xeyli gəlir gətirən sahələrdən biri isə arıçılıqdır, bu kənddə 500 arı ailəsi saxlanılır. Kənd sakini, Ermənistandan bu yaşayış məntəqəsinə pənah gətirmiş Məmmədəli Ağamalıyev:

– 77 yaşım var. Ömrüm boyu təsərrüfatla məşğul olmuşam. Gömürə gələndən arı ailəsi də saxlayıram, malqara da. Bir neçə il əvvəl vur-tut 10-12 arı pətəyim var idi. İlbəil qazancım artdıqca arı ailələrinin sayını da artırmağa başladım. Təcrübədə müəyyən etmişəm ki, tələb olunan səviyyədə qulluq, təmiz hava, güllü-çiçəkli ərazilər hər arı ailəsindən orta hesabla 10-15 kiloqram, bəzən bundan da artıq məhsul almağa imkan verir. Elə bu səbəbdəndir ki, arıçılar ildə 1-1,5 ton bala sahib olurlar. Şahbuz balı isə adı ilə tanındığından alıcısı da həmişə başının üstündədir. 30 baş iribuynuzlu heyvanım var. Dövlətimizin qayğısı kənddə bu sahələrin inkişafına imkan verib. Kim bu imkanlardan səmərəli istifadə edirsə, o da yaxşı yaşayır. Demək olar ki, Gömürdə bu gün heç kim yaşayışından narazılıq edə bilməz.

### *Bu günün həqiqəti*

***Oxuculara qısaca bəhs etdiyim Gömür kəndinin yurd qədri bilən insanlarının bugünkü həyat tərzi, yaşayış səviyyəsi belədir. Təbii ki, bunlar asan qazanılmayıb; insanlara qayğı göstərilib, onlar da bu qayğını dəyərləndirməyi, ondan səmərəli istifadə etməyi bacarıblar. Ona görə də bu gün Gömür Şahbuz rayonunun inkişaf etmiş kəndləri sırasında özünəməxsus yer tutur. Ölkəmizdə ulu öndər Heydər Əliyevin uzaqgörən ideyaları reallaşdıqca digər yaşayış məntəqələrimiz kimi, Gömür kəndi də gözəlləşir, inamla daha xoş sabahlara addımlayır.***

Muxtar MƏMMƏDOV

---

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir. İclası giriş sözü ilə agentliyin Baş direktoru Yasin Səfərov açaraq bildirmişdir ki, muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər cari ildə də davam etdirilmiş, Şərur rayonu ərazisində gücü 20,5 meqavat olan "Arpaçay-1" və gücü 1,4 meqavat olan "Arpaçay-2" Su Elektrik stansiyaları istismara verilmişdir.***

# Dövlət Energetika Agentliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib

Qeyd olunmuşdur ki, cari ilin ilk 7 ayında muxtar respublikanın elektrik şəbəkələrinə 363 milyon 659 min kilovat-saat elektrik enerjisi daxil olmuşdur. Bunun 40 milyon 877 min kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 262 milyon 818 min kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 343 min kilovat-saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında, 27 milyon 587 min kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 28 milyon 232 min kilovat-saatı "Arpaçay-1" Su Elektrik Stansiyasında, 410 min kilovat-saatı "Arpaçay-2" Su Elektrik Stansiyasında, 3 milyon 390 min kilovat-saatı Heydər Əliyev Su Anbarındakı SES-də istehsal edilərək elektrik şəbəkələrinə verilmişdir. Ötən 7 ay ərzində Türkiyə Respublikasına 102 milyon 585 min kilovat-saat elektrik enerjisi verilmiş, İran İslam Respublikası ilə enerji mübadiləsi aparılmışdır.

Vurğulanmışdır ki, 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər davam etdirilmiş, əsas avadanlıq və materialların birbaşa xarici ölkələrin istehsalçı müəssisə və təşkilatlarından alınıb gətirilməsi diqqət mərkəzində saxlanılmış, Türkiyə Respublikasından yarımstansiyalar üçün eleqaz açarları, ayırıcılar, turbin yağları, işıqlandırma dirəkləri, kabellər, Ukrayna Respublikasından güc transformatorları, müxtəlif izolyatorlar alınmış, yeni avadanlıqların alınması üçün müqavilələr bağlanmışdır. Baş verə biləcək qəza hallarının vaxtında aradan qaldırılmasında operativliyi təmin etmək məqsədilə mütəxəssislərdən ibarət təmir-bərpa briqadalarının fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılmışdır. Enerji təsərrüfatında istismarda olan mövcud avadanlıqlara və xətt təsərrüfatlarına müntəzəm olaraq texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. Qəzalara səbəb olan və istismar müddəti başa çatmış elektrik dirəkləri yeniləri ilə əvəz edilmiş, naqillər bərkidilmişdir. Qış mövsümündə baş verə biləcək qəzaların vaxtında aradan qaldırılması üçün maşın-mexanizmlər saz vəziyyətə gətirilmiş, kifayət qədər mal-material ehtiyatı yaradılmışdır. İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə olunması və sərf olunan elektrik enerjisinin dəyərinin sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir.

Yasin Səfərovun sözlərinə görə, 2014-cü ilin ilk 7 ayında Babək rayonunda yeni 1260 kilovolt-amper güclü 2 transformatorlu müasir avadanlıqlar, mühafizə və avtomat qurğular qoyulmuş, 35/10 kilovoltluq Kərimbəyli transformator yarımstansiyası tikilib istismara verilmişdir. Kəngərli rayonu ərazisində 110/35/10 kilovoltluq 35 meqavolt-amper güclü 2 transformatorlu müasir yarımstansiyanın, 10 kilometr uzunluqlu 110 kilovoltluq, 4 kilometr uzunluqlu 35 kilovoltluq, ikidövrəli elektrik verilişi xətlərinin tikintisinə başlanılmış, zəruri avadanlıqlar alınmış, 10 meqavolt-amper güclü transformator sifariş verilmişdir.

Muxtar respublikanın ayrı-ayrı yaşayış məntəqələrində, ümumilikdə, 16 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 41,5 kilometr uzunluğunda yeni 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmiş, 18 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilmişdir. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 76 ədəd 35/6/10 və 10/0,4 kilovoltluq transformator təmir edilib şəbəkələrə qaytarılmışdır.

Qarşıda duran vəzifələrdən də danışan baş direktor Yasin Səfərov diqqətə çatdırmışdır ki, payız-qış mövsümündə istehlakçıları fasiləsiz elektrik enerjisi ilə təmin etmək məqsədilə mövcud elektrik xətlərində dayaqlararası məsafələrin standartlara uyğunluğuna nəzarət gücləndirilməli, istifadə müddəti başa çatmış elektrik dirəklərinin və elektrik xətlərinin yeniləri ilə əvəzlənməsi işi davam etdirilməlidir. İşçilərin payız-qış mövsümündə isti geyim və təhlükəsizlik avadanlıqları ilə təminatına ciddi diqqət yetirilməli, yaşayış məntəqələrində yerləşən transformator və yarımstansiyaların ətrafında təhlükəsizlik sədləri çəkilməlidir. Sayğacdankənar elektrik enerjisindən istifadə hallarının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər davam etdirilməli, istehlak olunmuş elektrik enerjisinin dəyərinin vaxtında və tam həcmdə yığılmasına nəzarət gücləndirilməli, enerji israfçılığının qarşısını almaq məqsədilə nasazlıqların operativ şəkildə aradan qaldırılmasına diqqət artırılmalıdır. Elektrik enerjisindən istifadə zamanı meydana çıxan texniki itkinin standartlara uyğun olaraq minimum səviyyəyə endirilməsi üçün əlavə tədbirlər görülməli, tələb olunan mal-materialın, avadanlıqların muxtar respublikaya alınıb gətirilməsi və ehtiyatının yaradılması istiqamətində görülən işlər davam etdirilməlidir. Eyni zamanda elektrik hava xətlərinin yeraltı xətlərlə əvəz olunması və kadrların hazırlanması işi diqqət mərkəzində saxlanılmalıdır.

Sonra Naxçıvan Modul Elektrik Stansiyasının direktoru Məhərrəm Abbasov, Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyev, Yüksəkgərginlikli Elektrik Şəbəkəsinin direktoru Yunis Əliyev, Kəngərli Rayon Elektrik Şəbəkəsinin direktoru İsmixan Nağıyev görülmüş işlər və qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat vermişlər.

Kərəm HƏSƏNOV

*Azərbaycan sovet imperiyasının tərkibində olduğu müddətdə tariximizin yazılmasına müxtəlif əngəllər yaradılmış, onun obyektiv şəkildə işıqlandırılmasına imkan verilməmişdir. Lakin Azərbaycan öz müstəqilliyini qazandıqdan və ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra tariximizin yad təsirlərdən qorunması, faktlar əsasında yenidən yazılması üçün real imkanlar yaradılmışdır. Bu dövrdən etibarən Naxçıvan tarixinin öyrənilməsi sahəsində də ardıcıl tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə 1996-cı ildə “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumunun keçirilməsi Naxçıvan tarixinin milli ideologiya əsasında öyrənilməsinin əsasını qoymuşdur. Sonrakı dövrlərdə Ali Məclis Sədrinin imzaladığı sərəncamlara əsasən, Naxçıvan tarixinin elmi əsaslarla öyrənilməsinə başlanılmış, tədqiqat işləri aparılmış, yüzlərlə elmi əsərlər nəşr edilmişdir.*

# Naxçıvanda 8 ay bolşeviklərlə üz-üzə




“Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” çərçivəsində tərcümə və nəşr edilən türkiyəli general Veysəl Ünüvarın “Naxçıvanda 8 ay bolşeviklərlə üz-üzə” kitabı Naxçıvan tarixinin obyektiv şəkildə işıqlandırılması baxımından mühüm əhəmiyyətə malikdir. Kitabda Azərbaycan, xüsusilə Naxçıvan tarixinin 1918-1921-ci illər dövrünü əhatə edən olduqca maraqlı və obyektiv məlumatlar vardır. Bu illərdə həm Azərbaycan, həm də Türkiyə müstəqillik və milli dövlətin formalaşdırılması uğrunda mübarizə aparırdı. Türkiyə getdikcə daralan imperialist məngənəsində sıxılmaqda, Azərbaycan imperialist dövlətlərin təzyiqlərinə sinə gərməkdə, Naxçıvan isə hər tərəfdən erməni daşnaklarının hücumlarına məruz qalmaqda idi. Türkiyə istiqlal savaşının görkəmli nümayəndələrindən biri olan Kazım Qarabəkir Paşa o dövrdə yaranan siyasi vəziyyəti belə ifadə etmişdi: “Hər tərəfdən mühasirədəyik, yalnız Azərbaycana açıq olan Naxçıvan pəncərəsi var, onun qapanmamasını istəyirəm”.

Kitabda bolşevik inqilabından sonra rus dövlətinin adının dəyişməsinə baxmayaraq, imperialist siyasətinin dəyişmədiyi vurğulanır. Həmin dövrdə Sovet Rusiyası da imperialist dövlətlər tərəfindən blokadaya alındığından Rusiya ilə Türkiyə arasında diplomatik yaxınlaşma vəziyyətdən çıxış yolu axtarmaq məqsədinə xidmət edirdi. Kitabda general Veysəl Ünüvar Naxçıvanda olduğu zaman əhalidən gördüyü qonaqpərvərlikdən, ermənilərə qarşı igidliklə mübarizə aparan “Şərur türklərinin qəhrəmanı” Məşədi Hüseynin fədakarlığından fəxrlə söz açmış, Naxçıvanı türklərin ideal yurdu adlandırmışdır. Qeyd edilir ki, əhalisi türklərdən ibarət olan bu diyara 1829-cu ildən sonra ermənilər də yerləşdirilmişdir. Lakin ermənilərin yaşadığı kəndlərin hamısı türk adı daşıyırdı.

1917-ci il rus inqilabından sonra Ərzincandan Gəncəyədək olan əraziləri özlərinə birləşdirmək istəyən erməni silahlılarının darmadağın olunmasından, quldur Andranikin İranın Xoy və Urmiya bölgəsini nəzarətdə saxlamaq cəhdindən, Naxçıvanda yerli türk əhalisinin hadisələrə nəzarət etməsindən söz açan müəllif Doluxanovun rəhbərliyi ilə Şərur və Yengicəyə hücum edən ermənilərin yerli əhalinin müqaviməti nəticəsində məğlub edilərək Dəvəli stansiyasına və İrəvana qovulduğunu bilavasitə müşahidə etdiyi real faktlar əsasında yazmışdır. Kitabda həmçinin ingilislərin Naxçıvanı ermənilərə vermək, amerikalıların isə burada onlar tərəfindən idarə ediləcək bir qurum yaratmaq istəyindən bəhs edilmişdir. Qeyd olunur ki, ingilislərin hind əsgərlərinin köməyi ilə erməni silahlılarını Naxçıvanda yerləşdirib onları təşkilatlandırmaq cəhdinə baxmayaraq, yerli əhalinin hücumu ilə erməni qarnizonlarının hamısı bir gecədə dağıdılmışdı. Naxçıvanın erməni hücumlarından mühafizəsində qəhrəman vedililərin də böyük rolu olmuşdur.

Veysəl Ünüvar bolşeviklərin çətinlik içərisində olan insanları yalnız boş vədlərlə öz tərəfinə çəkmək istəyindən bəhs etmiş və fikirlərini bir aforizmlə tamamlamışdı: “Rənginə çox aldanma, fələk elə həmin fələkdi”. Rusiyanın xarici işlər naziri Çiçerinin Türkiyə ilə Moskva müqaviləsini bağlamaq üçün Van və Bitlisin ermənilərə verilməsi, burada yaşayan müsəlmanların isə Anadolunun içərilərinə köçürülməsi təklifi bu fikri bir daha təsdiq edir. Bolşevik təbliğatı Naxçıvanın yerli əhalisi içərisində müəyyən çaşqınlıq yaratmış, bəzi yerli silahlı qüvvələrdə türklərə inamsızlıq oyatmışdı. Veysəl Ünüvar bu hadisələrdən ürəkağrısı ilə danışır. Buna baxmayaraq, 1919-cu ildə Türkiyənin Naxçıvandakı hərbi rəhbərliyi ermənilərin atəşkəs şərtlərini müzakirə etmək üçün Milli Şuraya dəvət olunmuş, 1920-ci ilin yayında ermənilərin Naxçıvana hücumunun qarşısı məhz yerli silahlı qüvvələrin türk ordusuna köməkliyi sayəsində alınmışdı.

Bolşeviklər Naxçıvana gəldikdən sonra İrana çəkilən türk əsgərlərinin Naxçıvana getməsi, bolşevik ordusunda olan hərc-mərclik, onların yerli əhaliyə etinasızlığı Veysəl Ünüvar tərəfindən ürəkağrısı ilə qələmə alınmışdır. Bütün bunlar Sovet hakimiyyəti zamanı bolşeviklər haqqında uydurulan miflərin nə qədər yanlış olduğunu açıq-aydın göstərir. Üstəlik, Naxçıvana gələn bolşevik əsgərlərin əksəriyyəti erməni kommunistlərindən ibarət idi. Türk əsgərləri isə bolşeviklərin ermənilərə hücum edəcəklərini gözləyirmiş. Faktlar adını dəyişən rus imperiyasının ikiüzlü siyasətinin mahiyyətini bir daha sübut edir. Bolşevik ordularının Türkiyəyə kömək edəcəkləri haqqında vədlər elə vəd olaraq qaldı. Kitabda türk ordusunun komandanı Xəlil paşanın yeritdiyi siyasətin vətənpərvər türk zabitləri tərəfindən etirazla qarşılandığı bildirilir.

Veysəl Ünüvarın Naxçıvanda olduğu müddətdə şahidi olduğu hadisələr, xüsusilə Ordubadda bolşevik ordusunun qarşılanması ilə bağlı türk əsgərlərinin sərhəddə düşdükləri vəziyyət bolşeviklərin türklərə yardım haqqında verdiyi vədlərin qeyri-səmimi və boş xəyal olduğunu göstərir. Türk əsgərləri bu vədlərə hər nə qədər inansalar da, onların gözlədiyi qüvvə gəlmədi. Veysəl Ünüvar Cəhri kəndində olarkən bolşeviklərin saxta seçki siyasətinin şahidi olmuş, yerli kommunistlərə qarşı çıxan Kalba Kərəmin qəhrəmanlıqlarından iftixarla söz açmışdır. Müəllif bolşevikləri onların qərarlarını həyata keçirə biləcək zəif adamları hakimiyyətə gətirdiklərini Cəhrinin timsalında açıb göstərmişdir. Bolşeviklərin bir parça çörəyi yarı bölmək nəzəriyyəsi nəinki özünü doğrultmur, əksinə, xalqın əlindəkilər də alınaraq bolşeviklərə verilirdi. Bu isə xalqın müqavimətinə səbəb olurdu.

Türk generalının şahidi olduğu hadisələr göstərir ki, erməniləri Gümrü sülh müqaviləsini bağlamağa məcbur edən səbəb heç də türk ordusunun hücumları deyil, onların Naxçıvan cəbhəsində məğlubiyyəti və türklərə hüsn-rəğbət göstərən yerli əhalinin ayağaqalxma və intiqam təhlükəsi idi. Erməni hökuməti bu təhlükəni görmüş və atəşkəs şərtlərini qəbul etmişdi. Şübhəsiz ki, bu qələbələrin qazanılmasında Abbasqulu bəy Şadlinskinin rəhbərlik etdiyi, içərisində çoxlu naxçıvanlılar olan Qırmızı Taborun da müəyyən xidmətləri olmuşdu. Lakin müəllif nədənsə onların ermənilərə qarşı mübarizəsindən ötəri bəhs etmişdir.

Bolşeviklər isə türk döyüşçülərinin və Naxçıvan silahlılarının yardımı ilə İrəvana yiyələndikdən sonra türk ordusunu Naxçıvanda görmək istəmirdilər. Naxçıvanda bolşeviklərlə türk əsgərləri arasında gərgin vəziyyət yaransa da, onlar bu şəraitə səbirlə dözmüş, Moskva müqaviləsinin qərarlarını gözləmişlər. Türk ordusu ilə bolşeviklər arasında son münaqişə sanitar onbaşısı Mustafa Kamil bəyin həbsi ilə bağlı olmuşdu. O zaman Şahtaxtıda olan Behbud ağa Şahtaxtinski onun azad olunmasına köməklik etsə də, rusların onbaşını yenidən həbs etmək istəyi gərginlik yaratmış, lakin general Veysəl Ünüvarın cəsarəti sayəsində problem həll edilmişdi. Nəhayət, Moskva müqaviləsi Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusunu təsdiq etdikdən sonra 1921-ci il aprelin 15-də türk ordusu geri qayıtmaq əmri almışdı.

Vətənpərvər türk generalı Veysəl Ünüvarın xatirə xarakterli kitabı bir daha təsdiq edir ki, Naxçıvanın taleyi öz doğma yurdu uğrunda qanını və canını əsirgəməyən Məşədi Hüseyn, Kalba Kərəm, Abbasqulu bəy Şadlinski və yüzlərlə digər xalq qəhrəmanlarının şücaəti sayəsində mümkün olmuşdur. 1918-1921-ci illərdəki hadisələrə obyektiv qiymət verən “Naxçıvanda 8 ay bolşeviklərlə üz-üzə” kitabında ermənilərə qarşı qəhrəmancasına mübarizə aparan insanlar iftixarla xatırlanır.

***Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunan bu kitabı muxtar respublikanın 90 illik yubileyinə qiymətli hədiyyə kimi dəyərləndiririk. Əminik ki, 1918-1921-ci illərdə Naxçıvanda baş verən prosesləri müşahidə edərək qələmə alan təcrübəli türk generalının “Naxçıvanda 8 ay bolşeviklərlə üz-üzə” başlığı altında toplanmış xatirələri muxtar respublikanın tarixi ilə maraqlananlar üçün faydalı ilkin mənbə olacaqdır.***

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru***

# Bədii oyma sənətinin istedadlı davamçısı

***Ordubad şəhərinin “Minkəs” məhəlləsinin Ümmül-Leyla küçəsində yaşayır Cabir usta. Onun yaratdığı sənət əsərləri haqqında çox eşitmişdim. Bu sənət nümunələrini yaxından görmək üçün Ordubad şəhərinə getdim. Ağac üzərində oyma dekorativ-tətbiqi sənəti ilə məşğul olan Cabir ustanın müxtəlif məişət əşyaları, musiqi alətləri və bu qəbildən olan sənət nümunələri ilə tanış olduq. Evinin divarlarını bəzəyən taxçalar üzərindəki sənət inciləri göz oxşayırdı. Bundan başqa, sənətkarın kitabxanası diqqətimizdən yayınmadı. Sonradan aydın oldu ki, Cabir usta fars dilinin tədrisi ilə də məşğul olur. Bu, ona Şərq aləmini daha yaxşı tanımağa imkan verib. Bədii oyma dekorativ-tətbiqi sənətin ən qədim və ən geniş yayılmış növlərindən biridir. Daş, ağac, sümük və başqa materiallar üzərində işlənilir. Bu gün qədim Naxçıvan diyarında bu sənət növünün yaşadılması qürurverici və sevindirici hadisədir. Bədii oyma sənəti haqqında Cabir usta ilə həmsöhbət olduq.***

***– Bu sənətə necə gəldiniz?***

– Universiteti bitirdikdən sonra Ordubada qayıtdım. O zamanlar Ordubadda Azərbaycan Elmlər Akademiyasının Materialşünaslıq üzrə xüsusi konstruksiya şöbəsi fəaliyyət göstərirdi. 5 il orda işlədim. Eləcə də rayondakı Gənc Texniklər Mərkəzində işə başladım. O illərdə memarlıqla, heykəltəraşlıqla maraqlandım. Gips, gil, mərmər üzərində işlədim. Sonradan isə ağac üzərində oyma sənəti ilə məşğul oldum. Gün keçdikcə bu işi daha çox sevməyə başladım. Bu sənətlə məşğul olduqca xoşbəxt oluram, hər şeydən uzaqlaşıram, özümlə tək qalıram və təxəyyülümdəki obrazı yaradıram.

***– Bu sənətdə hansı ağaclar daha yararlıdır?***

Cabir usta ağacdan yaratdığı sirli aləmə tamaşa edə-edə dedi:

– Artıq ağacları çox yaxşı tanıyıram; hansının nəyə daha çox yararlı olduğunu təcrübəm sayəsində müəyyənləşdirə bilirəm. Mən ən çox qoz ağacından istifadə edirəm, onun orijinal rəng zümzüməsi mövcuddur. Mən süni rənglərdən istifadə etməyi sevmirəm. Qoz ağacından başqa, fıstıq, tut, dağdağan, alma, ərik ağaclarından da istifadə etmişəm. Ancaq sənətkarlıq baxımından qoz ağacı mənim seçimlərim arasında ilk sıradadır. Başqa ağaclar boş olduğundan onların üzərində səlis oyma ilə məşğul olmaq mümkün deyil, tez sınır, xarab olurlar.

***– İşinizdə dəzgahlardan da istifadə edirsinizmi?***

– Bəli, mən bir çox dəzgah aldım, lakin gördüm ki, bu dəzgahlar mənim istədiyim nəticəni əldə etməyimə tam kömək ola bilmir. Yeni üsullar kəşf etdim, dəzgahları təkmilləşdirdim. Və mənə lazım olan nəticəni əldə etdim.

***– Bəs Cabir ustanın davamçısı varmı?***

– Xeyr. Yalnız uzaq qohumlarımdan birinin buna bənzər fəaliyyəti olub. Tanınmış yazıçı İmran Qasımov bizim nəslin nümayəndəsi idi. Onun atası Hacı İmran Qasımov Bakıda tikilən bir neçə memarlıq abidəsinin və görkəmli binaların bədii tərtibatı və dekorativ formalarının işlənməsində yaxından iştirak edib. Əslində, bu sənəti öyrənmək istəyən çox insan olub, lakin sonralar onların ya səbirləri çatmayıb, ya da bu sənətə maddi gəlir əldə etmək məqsədilə yanaşdıqlarından bu sənətin davamı onlarda alınmayıb. Sənəti sevmək vacibdir, sevə bilməsən, sənət yarada bilməzsən.

***– Sənətinizin çətinliyi ilə bağlı nə deyə bilərsiniz?***

– Bu sənət çətindir, istedad, bilik, bacarıq, səbir tələb edir. Gərək bir çox elmi biləsən, Şərq-Qərb memarlığını, sənət nümunələrini mənimsəyəsən, milli dəyərlərə vaqif olasan. Məsələn, mən Qərb memarlığı və heykəltəraşlığı ilə maraqlandım, onların müxtəlif sənət üslublarını mənimsədim, bundan sonra Şərq memarlığına hörmətim daha da artdı. Çünki Şərq memarlığı daha dolğundur. Əslində, Qərb memarlığı ilə yaxından tanış olanda görürsən ki, qərblilər Şərq memarlığını özlərinə məxsus, özlərinə lazımlı şəkildə inkişaf etdiriblər. Avropa memarlığında bizdə olduğu qədər dəqiqlik yoxdur. Əcəminin yaratdığı dəqiqlik, özünəməxsusluq bu səbəbdən həmişə diqqət mərkəzində olacaq.

***– Əsərlərinizə olan maraqdan razısınızmı?***

– Bəli, dövlətin dəstəyi bizi daha da ruhlandırır. Azərbaycanda oyma, yonma, cızma üsulu ilə sənət əsərlərinin yaradılması ənənəsi tarixən mövcud olub. Əcdadlarımızın hələ lap qədim dövrlərdə daş üzərində oyub-cızdıqları və daş üzərindəki rəsmlər, fiqurlar buna sübutdur. Ağac üzərində oyma sənətinin tarixi isə yaxın keçmişdən başlayır.

Cabir Cabbarovun əsərlərinin içərisində şəbəkə formalı oyma işləri xüsusi diqqət çəkir. Onun yaratdığı sənət nümunələri estetik cəhətdən zərif, mənəvi mənası baxımından dərindir.

Əcəmi Əbubəkr oğlunun Yusif ibn Küseyir, Möminə xatın türbələrində işlətdiyi həndəsi şəbəkə növlərindən istifadə edərək bir çox sənət nümunəsi yaradan Cabir usta həmçinin özünəməxsus orijinal şəbəkə formaları da yaratmışdır. “Yaratdığım əsərlərin hamısı mənim üçün çox qiymətlidir”, – deyən Cabir ustanın yaratdığı sənət əsərləri bədii oyma sənətinin müasir nümunələri baxımından dəyərlidir.

**✍ Nərgiz İSMAYILOVA**

# Sədərəkdə növbəti əmək yarmarkası keçirilib

Sədərək rayonunda keçirilən növbəti əmək yarmarkasını giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov açıb. O qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” muxtar respublikamızda sahibkarlığın, xüsusən kiçik sahibkarlığın inkişaf etdirilməsinə, yeni ehtiyatlar hesabına yeni iş yerlərinin açılmasına, regiondakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə xidmət edir. Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Bəxtiyar Mahmudov çıxışında rayonun sosial-iqtisadi inkişafından söz açıb. Qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Muxtar respublikamızda da əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilir, insan amilinə qayğı prioritet vəzifəyə çevrilir. Qeyd olunub ki, bu istiqamətlərdə muxtar respublikada, eləcə də Sədərək rayonunda görülən işlər təqdir edilir.

İşaxtaran vətəndaş Mahmud Əliyev yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıq edərək bildirib ki, vətəndaşların müvafiq işlərlə təmin olunmasında əmək yarmarkalarının əhəmiyyəti böyükdür.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 7 dövlət və özəl təşkilatlardan 90 boş iş yerinin çıxarıldığı tədbirdə 12 nəfərə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

*Gəncliyimiz, gələcəyimiz*

## Çəkilən zəhmət hədər getmir



Haqqında söhbət açacağım Fatimə Əliyeva öz məqsədinə çatmaq üçün heç bir zaman oxumaqdan, öyrənməkdən çəkinməyib, sonda uğur onun qapısını döyüb. O, 1998-ci ildə Babək rayonunun Bulqan kəndində ziyalı ailəsində anadan olub. Fatimə elm və bilik dünyasına ilk kövrək addımlarını Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbdə atıb. Yaxşı oxumasına, davranışına, nizam-intizamına görə müəllimlərin təqdirini qazanıb. Məktəbdə keçirilən hər bir test imtahanı onun üçün uğura doğru gedən yolda bir mərhələ rolunu oynayıb. Dəfələrlə diplom və fəxri fərmanlarla təltif edilib. Orta məktəbi yüksək nəticələrlə bitirib, qazandığı bilikləri 3-cü ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanlarında sınayıb. Nəticə ürəkaçan olub. Fatimə bu imtahanda 626 ballıq yüksək göstərici ilə yaxınlarını, ona bu yolda işıq tutan, doğru yolu göstərən müəllimlərini sevindirib. Onun dediklərindən:

– Test vərəqini və sual kitabçasını qarşıma qoyanda bir anlıq düşündüm və belə qərara gəldim ki, üstündə dairələr olan bu vərəq, yuxusuz gecələrimi sınağa çəkən bu kitabça mənim üçün həyatımın ən gözəl mərhələlərindən birinə, daha dəqiq desəm, tələbəlik illərinə biletdir. Sadəcə, o biletin üzərində adımı yazdırmağım lazımdır. Onun üçün də çox məsuliyyətlə işə başladım və imtahan müddətində bir anlıq da olsa, heç bir şey haqda düşünmədim. Sualları bir-bir cavablandırdıqca elə bilirdim ki, xoş, parlaq gələcəyin qapıları mənim üçün açılır. Beləliklə, bəlkə də, həyatımın ən böyük sınağı başa çatanda üzərimdən ağır bir yükün götürüldüyünü hiss etdim. Zarafat deyildi, bizim üçün ən yaxşı təhsil şəraiti yaradanların, valideynlərimin, ən əsası isə müəllimlərimin qarşısında məsuliyyət daşıyırdım və açığını deyim ki, yaxşı nəticə göstərməkdən başqa çıxış yolum yox idi. Nəticələrim uğurlu oldu və mən Naxçıvan Dövlət Universitetinin “xarici dil (ingilis dili) müəllimliyi” ixtisasını seçdim. Bundan sonra da seçdiyim peşəni sevərək daha yaxşı oxumaqla bizə göstərilən etimadı doğruldacağıma söz verirəm.

Sevindirici haldır ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda ali təhsilin təcrübə sahələrinə yaxınlaşması, tələbələrin praktik vərdişlərini artırmaları üçün hər cür şərait yaradılıb. Çalışın ki, yaradılanlardan lazımınca bəhrələnə biləsiniz. Çünki əsl mütəxəssis kimi yetişmək qazanılan bilikləri təcrübədə doğrultmaqla mümkündür. Bu yolda bütün tələbələrimizə uğurlar arzulayırıq.

**Sona MİRZƏYEVA**

## Ata-babalarımızdan miras qalan idman növü – güləş

***Azərbaycanda hər bir kəsin maraq göstərdiyi yunan-Roma və sərbəst güləş idman növləri zəngin tarixə və özünəməxsus ənənələrə malikdir. Güləş ölkəmizin milli idman növüdür. Bu növ ABŞ-da təşəkkül tapsa da, milli güləşimizin əksər elementləri, fəndləri və mübarizə metodları sərbəst güləşlə eynilik təşkil edir. Qəbul etdiyimiz milli güləş tarixən daha qədimdir. Təsadüfi deyil ki, milli güləşin elementlərinə Qobustan qayalarında, şifahi xalq ədəbiyyatında, klassik ədəbiyyatda, dastanlarda rast gəlirik. Güləşin qədimliyini sübut edən faktlardan biri də Azərbaycanda toy və bayram şənliklərində insanların bu idman növündə özlərini sınamalarıdır. Ölkəmizdə güləş yarışları xüsusi yerlərdə – zorxanalarda keçirilirdi. Milli güləşin inkişaf etməsi və gənclərin sevimli məşğələsinə çevrilməsi bir tərəfdən milli irsimiz və ənənələrimizlə bağlıdırsa, digər tərəfdən yaradılan idman məktəbləri, göstərilən diqqət və qayğı ilə əlaqədardır.***

### *Muxtar respublikada güləşin inkişafı*

Ölkə Prezidenti cənab İlham Əliyevin bütün idman sahələrinə diqqət göstərməsi, idman növlərinin inkişafı üçün verdiyi sərəncamlar, peşəkar idmançıların yetişməsi üçün yaradılan infrastruktur güləş idman növünün də kütləviləşməsinə stimul olub. Artıq ölkəmizin bütün regionlarında bu idman növü ailələrdə belə, deviz, şüar halını alıb. “Hər ailədə bir güləşçi” devizi Naxçıvan Muxtar Respublikasında güləşin kütləvi şəkildə inkişafına təkan verib. Muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində milli idman növünün geniş yayılması üçün hər cür şərait yaradılıb.

Muxtar respublikada yaradılan Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası məhz bu diqqət və qayğının təzahürlərindən biridir. Federasiyanın sədr müavini Yaşar Səfərov bizimlə söhbətində əvvəlcə cari ilin ilk 6 ayında muxtar respublikada keçirilən yarışlar barədə məlumat verdi: “Güləş muxtar respublikada son illər geniş vüsət almağa başlayıb. Onu qeyd edim ki, hazırda federasiyada 22 məşqçi-müəllim fəaliyyət göstərir və onların 1500-dən çox tələbəsi var. Bu say o deməkdir ki, muxtar respublikada uşaq, yeniyetmə və gənclərin güləşə hədsiz dərəcədə marağı var.

Cari ilin ilk 6 ayında federasiya bir çox yarışlar, turnirlər təşkil edib. 18 yanvar 2014-cü il tarixdə Uşaq-Gənclər İdman Məktəbinin idman zalında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş kiçikyaşlı yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan şəhər turniri keçirilmişdir. Yarışda 50 idmançı iştirak etmişdir. 26 fevral – Xocalı soyqırımına həsr olunmuş daha bir turnirimiz 21-22 fevral tarixlərində keçirilmişdir. Sərbəst güləş üzrə Naxçıvan şəhər turnirində 11 çəki dərəcəsində 80 idmançı iştirak etmişdir.

3-5 may tarixlərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə “Naxçıvan Kuboku” uğrunda Beynəlxalq Turnir təşkil olundu. Ənənə halını alan bu turnirdə 7 ölkədən 120 idmançı iştirak etmişdir ki, Naxçıvan komandası bu turnirdə beşinci yerə layiq görülmüşdür. Federasiya 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş sərbəst güləş üzrə 1997-1999-cu illər təvəllüdlü yeniyetmələr arasında Naxçıvan Muxtar Respublika turniri keçirmişdir. İlham Əliyev adına Olimpiya-İdman Kompleksində iyun ayında reallaşdırılan muxtar respublika turnirində 10 çəki dərəcəsində 84 güləşçi birincilik uğrunda mübarizə aparmışdır”.

Federasiyanın sədr müavini muxtar respublika güləşçilərinin ölkə birinciliklərində uğurla çıxış etdiyini də vurğuladı. Y.Səfərov bildirdi ki, 2-4 mart 2014-cü il tarixlərində Bakı şəhərində sərbəst güləş üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyi keçirilmişdir. Bu yarışda muxtar respublikamızı 6 pəhləvan təmsil etmişdir. Güləşçilərimizdən Təbriz Məmmədov 63 kiloqram çəki dərəcəsində yalnız finalda məğlub olaraq həmin birincilikdə gümüş medal qazanmışdır. Həmçinin 7-10 aprel 2014-cü il tarixlərində Balakən Olimpiya-İdman Kompleksində sərbəst güləş üzrə yeniyetmələrin doqquzuncu respublika oyunları keçirilmişdir. 16 idmançı ilə bu yarışda iştirak edən güləşçilərimiz uğurlu çıxışları ilə yadda qaldılar. Belə ki, Sənan Zeynalov gümüş, Əli Məmmədov, Seyran Hüseynli və Sərxan Əliyev isə bürünc medallar qazanaraq muxtar respublikada güləş idman növünün sürətlə inkişaf etdiyini bir daha sübut etdilər”.

Yaşar Səfərov federasiyanın işinin bununla yekunlaşmadığını, gələcəkdə qazanılan uğurların daha çox olacağını qeyd etdi: “Qarşıdakı aylarda muxtar respublikada növbəti turnirlər, yarışlar təşkil olunacaq. Yeniyetmələrin bu idman növünə marağını artırmaq üçün rayonlarda mütəmadi olaraq yarışlar təşkil olunur. Muxtar respublikada bizim üçün yaradılan bu şəraitdən maksimum istifadə etməyə çalışırıq. İnfrastruktur baxımından güləşçilərin heç bir çətinliyi yoxdur və çalışacağıq ki, idmançılarımız beynəlxalq turnirlərdə Azərbaycan bayrağını ən yüksəkdə dalğalandırsınlar”.

### P.S. Güləşin faydaları

Güləş mübarizə idman növlərinin ən qədimidir. Bu idman növü türk və İslam dünyasında əhəmiyyətli yerə sahibdir.

• *Güləşin digər idman sahələrinə görə gənclərin mühərrik tutumunu inkişaf etdirmələrində çox təsirli olduğu isbat edilmişdir.*

• *Güləş sürət, qüvvət, elastiklik, dayanıqlılıq kimi fiziki xüsusiyyətləri inkişaf etdirir.*

• *Bu idman növü eyni zamanda cəsarət, təvazökarlıq, özünəgüvənc kimi insani xüsusiyyətləri inkişaf etdirir.*

• *Güləş bir mübarizə idmanı olmaqla insana dözüm və yüksək iradə qazandıran milli idman növüdür.*

**Ceyhun MƏMMƏDOV**

***Müasir cəmiyyətdə insanların böyük bir qisminin evdə və işdə, toyda və səfərdə yerinə görə üstünlük verdikləri ümumi qəbul olunmuş bir geyim forması vardır ki, bunlar da zamanın diktəsi və inkişafın mövcud səviyyəsi ilə bir moda halına gəlib zövqlərə görə də dəyişir.***

## Hər paltar gözəl geyimdirmi?

Bununla yanaşı, geyim, hər şeydən əvvəl, iqtisadi bir tələbatdır və bu tələbatın ödənilməsi üçün çəkilən xərclər qədər geyim istehsal edən firmalar da gəlir əldə edirlər. Yəni bu gün yeri gəldi-gəlmədi, yalnız bir məclis üçün alınan bahalı paltarlara ödənilən pul həmin firmanın, onun yerləşdiyi ölkənin qazancı deməkdir. Moda sürətlə dəyişdiyindən və insanların da geyimlərə olan marağı tükənmədiyindən geyim sənayesi dünyada çox geniş yayılmaqda və kənd təsərrüfatı, kimya, maşınqayırma sənayesi kimi bir çox sektorlarla da qazanc gətirən bir sahəyə çevrilməkdədir. Bizdə isə, hələlik, əsaslı moda-geyim sənayesi olmasa da, hər kəsin maddi imkanından, milli adətlərimizdən, modaya çevik münasibətimizdən yaranan zəngin geyim ənənələrimiz vardır.

Geyim mövzusu cazibədar olduğu qədər də mürəkkəbdir. Yəni burada cəmiyyətdə ümumi qəbul olunmuş etiketlə yanaşı, hər kəsin də bir subyektiv fikri, tutarlı dəlilləri ola bilər. İnsanlar bəzən öz geyimi ilə sosial statuslarını nümayiş etdirməyə çalışsalar da, əslində, bu, onların cəmiyyətdə həm özlərinə, həm də başqalarına olan hörmətinin sadə dillə ifadəsidir. Başqa sözlə, sadə və gözəl geyim mədəniyyəti hər bir insanın digərindən geyiminə görə fərqlənmədiyinin, əsl fərqin məhz yaradıcı, məhsuldar əməklə cəmiyyətə nə qədər faydalı ola bilməyin bir ifadəsidirsə, həddən artıq şit və bayağı geyimlərlə özünü göstərmək istəyənlərə cəmiyyətin verdiyi qiymət isə yalnız onların geyiminə görədir desək, yanılmarıq. Ona görə də cəmiyyətdə, xüsusən də nizam-intizam tələb olunan yerlərdə, təlim-tərbiyə müəssisələrində, uşaq və gənclərin formalaşdığı hər bir məkanda geyimlə bağlı münasibətlər tənzimlənmədikdə bu, nəinki insanların sərbəst yaşayıb düşünmə tərzinə kölgə salır, hətta milli dəyərlərimizə, ağsaqqal, ağbirçək hörmətinə, müəllim zəhmətinə və rəhbər nüfuzuna xələl gətirən bir aşınmaya aparıb çıxarır. Bunu bildiyimiz halda, nədənsə, hələ körpə yaşından uşaqlara minbir həvəslə gözəl paltarlar seçib sonra da ilk məktəb günlərindən onlara böyüklərə aid ciddi kostyumlar geyindirən valideynlər sonralar kənar mədəniyyətlərin təsiri ilə gənclərin nə cür geyimlərə meyil etmələrinə biganə qalırlar. Bəlkə də, bu biganəlikdəndir ki, uşaqlar “ağlı kəsəndən” özlərinə geyim seçimində müstəqil qərarlar verir və bununla da…

İnanmırsınız, bircə dəfə parkda, alış-veriş mərkəzlərində, hava limanında və insanların daha sıx olduğu digər yerlərdə yarımca saat diqqət edib müşahidə aparın. Baxırsan ki, budur, iki qayğısız gənc şirin söhbət edə-edə sizə yaxınlaşır. Gənclərdən biri dəbli və səliqəli geyimi ilə diqqəti cəlb edir, digəri isə sanki “müharibədən çıxmışa” bənzəyən cins şalvarı və mənasını bilmədiyi yazıların yazıldığı köynəyi ilə əvvəl yaranmış zövqümüzü alt-üst edir. Hansısa mağazadan aldığı bu geyimlərin üzərində soy-kökümüzdən, milliliyimizdən başqa, nə istəsən, var. Yetər ki, bu yazılar anlaşılmaz, əcaib ifadələr kəsb edən olsun. Bir lüğətə baxın, görün gülməlidir, ya düşündürücü? Bəlkə, bunlar artıq təqlidçilərə dönmüşlər? Yox! Mən inanmıram ki, cəmiyyətimizdə Nigarı Ceniferə, Mübarizi də Tarkana bərabər tuta biləcək bir “ideya” sahibi olsun. Amma nədənsə, kimlərinsə səhlənkarlığından, ya məsuliyyətsizliyindən belə mallar dükan-bazar vitrinlərini “bəzəməkdədir”. Məktəbdə və universitetdə müəyyən olunmuş formanı fürsət düşən kimi çıxarıb atan, pencəyini torbada, qalstukunu da cibində gəzdirən bəzi “müasir” tələbələrimiz belə paltarlarla sanki səviyyə nümayişinə çıxır, başqalarının da şüurunu zəhərləyərək beyinlərini mənasız yerə məşğul edirlər. Ona görə də təhsil və təlim müəssisələri kimi, valideynlər də özümüzəqayıdışda çox böyük əziyyətli yol keçdiyimiz bir zamanda bu cür beşmanatlıq paltarların gənclərin dünyagörüşünün formalaşmasına vurduğu zərərləri görüb məsuliyyət dərk etməlidirlər.

Geyim mövzusunun digər bir tərəfi belə “markalı” geyimlərin istehsalçısının, əslində, heç kim tərəfindən tanınmaması və deməli, parçasının keyfiyyətinə də zəmanət verilməməsidir. O keyfiyyət zəmanəti ki, əvvəllər geyindiyimiz bir kostyum köhnələnə qədər onun rənginin solması, əzilməsi və sair problemi olmazdı. İndi isə nisbətən ucuz qiymətə satılan və əsasən, idxal mənşəli belə geyimlərin bu tələblərə necə cavab verdiyi göz qabağındadır.

Ölkəmizin valyuta ehtiyatlarına da öz ciddi təsirini göstərən moda-geyim sənayesindəki bu boşluqların doldurulması isə öz həllini gözləyən məsələlərdəndir. Bu istiqamətdə atılan ilk addımlar kimi digər rəsmi geyim formaları ilə bərabər, məktəbli geyim formalarının da tikilişi üzrə muxtar respublikamızda istehsal müəssisələrinin qurulmasını göstərə bilərik. Yeni texnologiyanın tətbiq olunduğu belə müəssisələrin sayının artırılması və onların iş həcminin genişləndirilməsi ilə gələcəkdə həm geyim sənayesində, həm də moda sektorunda mühüm irəliləyişlər əldə etmək mümkündür. Çünki bu gün təkcə vahid geyim sektorunda yer tutan belə müəssisələrimiz gələcəkdə modalı geyimlər istehsalına da başlayaraq idxaldan asılılığı azalda bilər. Buna isə bizim hər cür imkanımız, gözəl geyinməyə zövqümüz, gözəl paltarlar tikməyə usta dərzilərimiz vardır.

**Əli CABBAROV**

### *İtmişdir*

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsi tərəfindən 25.12.2001-ci il tarixdə Rzayev Elsevər İlyas oğluna verilmiş 064761 nömrəli müharibə veteranının vəsiqəsi itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Mahir Əliyevə, qardaşı **ELDARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları iş yoldaşları Varis Quliyevə, əzizi **VƏLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları iş yoldaşları Pərviz Fətullayevə, əzizi **ƏFRUZ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti universitetin müəllimi Hacı Qadir Qədirzadəyə, qardaşı **SİYASƏTİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
**Baş redaktorun müavini:** SƏYYAR MƏMMƏDOV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 703